# Ulu öndər Heydər Əliyev və milli mənəvi dəyərlərimiz



Hər bir xalq öz tarixinin yeni səhifələrini məhz yetişdirdiyi dahi övladlarının ağlı, zəkası, qətiyyəti, qəhrəmanlığı sayəsində yazmağa nail olur. Azərbaycanın XX əsr tarixinin böyük bir hissəsini heç şübhəsiz tam əsasla ulu öndərimiz "Heydər Əliyev tarixi" adlandıra bilərik. Ötən yüzilliyin təxminən 30 ili ərzində ölkəmizdəki inkişaf, qazanılmış nailiyyətlər, yaradılmış dəyərlər və sərvətlər Ulu Öndərin adı və fəaliyyəti ilə bağlıdır. Ümummilli Lider böyük siyasi və dövlət xadimi, xalqın rəhbəri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb etmişdir.

Fikrimcə, hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının mənəvi sərvətlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və milli mənəvi dəyərlərini qorumalıdır. Biz öz milli mənəvi dəyərlərimizlə, öz adət-ənənələrimizlə fəxr edirik. Bilirik ki, hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.

Milli mənəvi dəyərlərə dövlətçilik mövqeyindən qiymət verilməsi ölkəmizdə azərbaycançılığın qorunub saxlanılması və inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Ulu öndərimiz Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini, milli ideologiyamızın strukturlarına daxil etməklə mədəniyyət və dövlətçiliyin sintezindən çıxış edirdi. Dahi rəhbərimiz haqlı olaraq belə hesab edirdi ki, azərbaycançılığın əsas komponentlərindən biri milli dövlətçilik, digəri isə milli mənəvi dəyərlərdir. Milli mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

Qeyd edim ki, xalqımızın əsrlərdən bəri formalaşmış adət-ənənələri vardır. Onlardan kiçiyin böyüyə hörməti, böyüyün kiçiyə diqqət və qayğısı, övladın valideynlərinə hədsiz hörməti, valideynlərin öz övladlarına olan qayğı və məhəbbəti bu adət-ənənələrin əsasını təşkil edir. Bu bizim xalqımızın mentalitetidir və biz bununla fəxr edirik. Ulu Öndərimizin bizə əmanət qoyduğu həmin siyasi irs demokratik idarəetmə fəlsəfəsini, mənəvi dəyərlərimizin qorunmasını, cəmiyyətin bütün potensialının milli maraqlar kontekstində səfərbər edilməsini, cəmiyyət arasında daimi həmrəyliyin yaradılmasının elmi əsaslarını kifayət qədər təkmil formada özündə əks etdirir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli mənəvi dəyərlərinin, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşməsinə çalışmışdır. Sovet imperiyasının Azərbaycan xalqı əleyhinə apardığı siyasət nəticəsində Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, milli mənəvi sahədə də böhran hökm sürmüş və 1960-cı illərdə bu böhran özünün kulminasiya nöqtəsinə çatmışdı. 1969-cu ildə Azərbaycanda hakimiyyət sükanının arxasına keçən ümummilli lider Heydər Əliyev qısa müddət ərzində zəngin milli mənəvi dəyərlərimizin qorunması və inkişafına şərait yaratdı. Azərbaycan xalqı tarixin ən keşməkeşli mərhələsində belə mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək bu dəyərlərə həmişə sadiq qalmışdır. Ulu öndərimiz Heydər Əliyev bu barədə demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

İnsanların yaddaşında ateizm mərhələsi kimi qalan sovet dönəmində də xalqımız öz milli mənəvi dəyərlərindən uzaqlaşmamış, əksinə, milli və dini əxlaqa söykənərək xeyirxah işlər görmüş, maddi yardıma ehtiyacı olanlara əl tutmuş, savab işlərin yolçusu olmuşdur. Eyni zamanda həmin dövrdə bir çox qadağalara baxmayaraq xalqımız milli bayramımız olan Novruzu və dini bayramımız olan Qurban və Ramazan bayramlarını da qeyd etmişdir.

Ulu Öndərin bütün sahələrdə siyasətini uğurla davam etdirən, xalqımızın milli mənəvi dəyərlərini həmişə uca tutan ölkə Prezidenti cənab İlham Əliyev bütün adət-ənənələrimizə və dini bayramlarımıza hörmətlə yanaşır, onların qeyd olunması üçün ölkədə hər cür şərait yaradır və bayram tədbirlərində şəxsən iştirak edir.

Ümummilli liderimiz Heydər Əliyev həyat və fəaliyyəti, onun adət-ənənələrimizə göstərdiyi böyük hörmət və ehtiram biz gənclər üçün nümunədir. Biz öz milli dəyərlərimizə adət-ənənələrimizə məhz dahi rəhbər Heydər Əliyevin münasibətləri səviyyəsində yanaşmağı özümüzə borc bilirik, hər birimiz Ümummilli Liderimizin ruhu qarşısında baş əyirik.

Bir gənc olaraq fikirləşməməliyik ki, dövlət, Vətən, el, oba bizim üçün nə edib, fikirləşməliyik ki, biz dövlət, Vətən, el, oba üçün hansı işləri görmüşük. Fikrimi ulu öndərimiz Heydər Əliyevin sözləri ilə bitirmək istərdim. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

**Nəsimi Teymurov,**
İsmayıllı Rayon İcra Hakimiyyəti
başçısı aparatının baş məsləhətçisi